# KİMYA DƏRSLƏRİNDƏ EFFEKTİV TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

**T.İ. Tağıyev**
*Gəncə Dövlət Universiteti Kimya kafedrasının professoru, pedaqogika üzrə elmlər doktoru*

Dərsin effektivliyinin artırılmasında şagirdlərin fəallığının təmin edilməsinin xüsusi əhəmiyyəti vardır. Bu məqsədlə müxtəlif üsullar və vasitələrdən istifadə etmək mümkündür. Məsələn: Qarşıda problemli vəziyyət yaratmaq və şagirdləri yaranmış problemin həllinə cəlb etmək, onların müstəqil düşünməsinə, mühakimə yürütməsinə nail olmaqla yanaşı analiz, sintez, ümumiləşdirmə, sistemləşdirmə, proqnoqlaşdırma əməliyyatlarını yertinə yetirmək bacarığı formalaşdırılır ki, nəticədə yaradıcılıq imkanları artırılır.

Dərs prosesində bu kimi zehni fəaliyyət üsulları və priyomlardan istifadə edilməsi metodikasını "Xlor" mövzusunun tədrisi nümunəsində nəzərdən keçirək.

**Dərsin məqsədi:**

1. Bu mövzunun öyrənilməsi imkan verir ki, şagirdlərin müstəqilliyi inkişaf etdirilsin və dünyagörüş tərbiyəsi formalaşsın.
2. Şagirdlərin idraki fəaliyyətlərini aktivləşdirən metodlardan istifadə edilsin.
3. Hadisələrin mahiyyətinin maddələrin xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsi aşkar edilsin, maddələrin təbiətdə yayılması və praktik tətbiqi öyrədilsin.

**İş forması:** ümumi siniflə iş, kiçik qruplarla iş, cütlərlə iş.

**Təlim üsulları:** müşahidə, təcrübə, müzakirə, problemlər, şərh, diskussiya.

**Resurslar:** dərslik, D.İ.Mendeleyevin dövri sistem cədvəli, mövzuya aid hazırlanmış sxemlər və tablolar, hallogenli birləşmələrə aid kolleksiyalar.

**Dərsin planı:**

1. Hallogenlərin atomlarında elektronların paylanmasını əks etdirən dərslikdəki cədvəl üzrə müsahibə.
2. Flüordan başqa hallogenlərin atomlarının həyəcanlanma imkanlarını aşkar etmək üçün qrafiki şəkildə çəkilmiş sxem üzərində izahat vermək.
3. Xlorun laboratoriyada və sənayedə alınması üsulları.
4. Xlorun fiziki və kimyəvi xassələri ilə şagirdləri tanış etmək.
   a) Bəsit maddələrlə qarşılıqlı təsiri;
   b) Mürəkkəb maddələrlə qarşılıqlı təsiri;
   c) Xlorun tətbiqi;

**Dərsin gedişi:**

**I mərhələ**

**Motivasiya. Problemin qoyuluşu.** Bu məqsədlə şagirdlərin qarşısında aşağıdakı formada problem-situasiya yaradılır:

1. Dövri sistemdə yarımqrup üzrə yuxarıdan aşağıya doğru istiqamətdə hallogenlərin elektromənfiliyi necə dəyişir?

2. Xloru laboratoriyada və sənayedə hansı üsullarla alırlar?

Bu suallara cavab vermək üçün şagirdlərə təklif edilir ki, dərslikdən "Xlor" mövzusuna aid materialı oxuyaraq həmin suallara müstəqil cavab hazırlasınlar.

Şagirdlər dərslikdən istifadə edərək həmin sualları cavablandırdıqdan sonra, müəllim onların qarşısında yeni bir problemli vəziyyət yaradır. Bu məqsədlə qarşıda aşağıdakı suallar qoyulur.

Xlor atomunun radiusu flüor atomunun radiusundan böyük olmasına baxmayaraq nə üçün xlor molekulunun atomlara parçalanmasına flüor molekulunun parçalanmasından çox enerji sərf edilir? Yəni nə üçün xlor molekulu flüor molekulundan davamlıdır?

Şagirdləri düşündürücü fəaliyyətə cəlb etdikdən sonra müəllim xlor və flüor atomunun qrafik elektron formuluna əsasən xlor və flüor molekulunun qrafik elektron formulunun tərtib edilməsini şagirdlərə tapşırır.

Müəllimin istiqamətverici köməkliyi ilə şagirdlər flüor və xlor molekulunun qrafik elektron formullarını aşağıdakı sxemlə ifadə edirlər.




Müəllim şagirdlərin diqqətənin xlor molekulunun qrafik elektron formuluna cəlb edərək xlor atomlarını qoşalaşmamış 3p elektronlarının hesabına yaranan kovalent rabitədən başqa xlor atomunda qoşalaşmış 3p elektronlarının 3d yarımsəviyyəsinin vakant (boş) orbitallarına keçməsi nəticəsində əlavə iki kovalent rabitənin yarandığını göstərir. Burada qeyd edir ki, flüor atomunda d-orbital olmadığı üçün flüor molekulunda bu cür əlavə rabitə yaranmır, ona görə də onun molekulu davamsızdır. Yəni asanlıqla atomlara parçalanır. Beləliklə problem həll olunur.

### II mərhələ

**Tədqiqatın aparılması.**

Şagirdlərin hər biri 3-4 nəfərdən ibarət qruplara ayrılır.

Dərslikdə “Xlor” mövzusuna aid verilən materialdan xlorun laboratoriyada və sənayedə alınması üsullarını öyrənirlər.

Sonra qruplara aşağıda verilən suallara müstəqil olaraq kitabdan istifadə etməklə cavab hazırlamaq tapşırılır.

1. Xlorun fiziki xassələri hansılardır?
2. Xlor hansı bəsit maddələrlə reaksiyaya girir? Reaksiyaların tənliklərini yazın, elektron keçidini göstərin. Oksidləşdirici və reduksiyaedicini göstərin.
3. Xlor hansı mürəkkəıb maddələrlə reaksiyaya girir? Hər bir reaksiyanın tənliklərini yazın.
4. Javel suyu nədir? Onun alınması reaksiyasının tənliyini yazın. O, harada tətbiq olunur?
5. Xlorun tətbiqi sahələrini söyləyin.

Şagirdlər qruplarla işləyirlər.

### III mərhələ

**İnformasiya mübadiləsi.**

Yuxarıdakı tapşırığa verilən cavablar əvvəlcə qrup daxilində müzakirə edilir, fikir mübadiləsi aparılır, sonra hər qrupun nümayəndəsi verilmiş sual tapşırıqlara aid cavabları lövhədə ümumi sinifə təqdim edir.

### IV mərhələ

**Alınan nəticələrin müzakirəsi.** Bu mərhələdə cavablar dəqiqləşdirilir.

### V mərhələ

**Nəticələrin ümumiləşdirilməsi.**

Nəticə aşağıdakı müddəalar formasında ümumiləşdirilir:

1. Xlor çox aktiv olduğu üçün təbiətdə yalnız birləşmələr şəklində tapılır.
2. Laboratoriyada xloru qatı xlorid turşusuna müxtəlif oksidləşdiricilərin ($MnO_2$, $KMnO_4$, $KClO_3$, $Ca(ClO)_2$ və s) təsiri ilə almaq olar.
3. Xlor sənayedə qələvi metalların xloridlərinin ərintiləri və suda məhlullarının elektrolizindən alınır.

4. Xlor adi şəraitdə sarımtıl-yaşıl rəngli qazdır.

Xlor bəsit maddələrdən Na, Zn, Sb, $F_2$, $H_2$ S, P, Fe, Cu ilə reaksiyaya girir.

Xlor mürəkkəb maddələrdən $H_2O$, NaOH, $FeCl_2$, HBr, HJ, NaBr, NaJ ilə reaksiyaya girir.

Xlor kağızların və parçaların ağardəlmasında, içməli suyun dezinfeksiya edilməsində müxtəlif pestisidlərin istehsalında, xlor-üzvi maddələrin və s. istehsalında tətbiq olunur.

**VI mərhələ**

**Yaradıcı tətbiq etmə.**

Qruplara aşağıdakı çalışma və məsələləri həll etmək tapşırılır:

1. Nə üçün nəm olmadıqda xlorun kimyəvi aktivliyi zəif olur, lakin su buxarının hətta çox az miqdarı olduqda onun kimyəvi aktivliyi kəskin artır?

2. Fərz edək ki, atmosferdə sərbəst xlor var. Xlor hansı kimyəvi reaksiyalar nəticəsində birləşmə halına keçər?

3. Xlor bilavasitə oksigenlə reaksiyaya girmir. Nə üçün? (Ona görə ki, reaksiyanın getməsi üçün yüksək temperatur lazımdır. Cl-O rabitəsi isə davamsızdır. Yüksək enerjiyə davam gətirə bilmir).

4. Hansı bəsit maddə xloru oksidləşdirə bilər?

5. Xlor qələvi məhlulda ağardıcı xassə göstərir. Bu reaksiyanın tənliyini yazın və ağardıcı xassənin səbəbini izah edin.

Şagirdlər aşağıdakı nəticəyə gətirilir:

**Cavab:** $Cl_2 + 2NaOH = NaCl + NaOCl + H_2O$

NaOCl havadakı karbon qazı ilə reaksiyaya girir.

$OCl^- + CO_2 + H_2O \rightarrow HCO^-_3 + HOCl$

HOCl - davamsız olduğu üçün oksigen ayırır, nəticədə rəngli maddə oksidləşir və rəngsizləşir.

Müəllim suallara cavab aldıqdan sonra qiymətləndirməcədvəlini lövhədən asır və qiymətləndirmə aparılır.

**Meyar cədvəli**

| *Meyarlar / Qruplar* | *Suallara verilən cavabların düzgünlüyü* | *Qrupların fəallığı* | *Qruplarda mehriban əməkdaşlıq* | *Əlavə materialdan istifadə* | *Analiz, sintez ümumiləşdirmə bacarığı* | *Nəticənin təqdim edilməsi* |
|---|---|---|---|---|---|---|
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

Ev tapşıırığı §39-u öyrənmək. Suala cavab hazırlayın.

1. İçməli suyun dezinfeksiya edilməsində xlordan istifadənin rolu nədən ibarətdir? İzah edin. Reaksiyanın tənliyini yazın.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Abbasov V.M və başqaları. Ümumtəhsil məktəblərinin IX sinfi üçün. "Kimya" dərslik. Bakı, 2012.

2. Tağıyev T.İ. "Kimyanın tədrisi metodikası" I və II hissələr. Bakı. "Elm" 2012. 264 səh, 2013, 216 səh.

***Т.И.Тагиев.***
*д.п.н., профессор кафедра химия*
*Гянджинского Государственного Университета*

**«Использование из эффективных образовательных технологии в уроков химии»**

**АННОТАЦИЯ**

В статье даны методики использование из эффективных образовательных технологий в теме «Хлор» в уроках химии.

***T.I. Tagiev***
*Ph.D., Professor Department of Chemistry*
*Ganja State University*

**“The use of effective educational technologies in chemistry lessons."**

**ANNOTATION**

The article provides methods of use of effective educational technologies in the theme of "Chlorine" in chemistry lessons.

**Açar sözlər:** metodika, təlim texnologiyaları, problem, ümumiləşdirmə, sistemləşdirmə, yaradıcılıq.

**Ключевые слова:** методика, образовательных технологий, проблем, обобщение, систематизация, творчество.

**Keywords:** methodology, educational technology, problems, generalization, classification, creativity.